


Əl işdən soyumaz, ürək arzudan...

# QƏBƏLƏ

ictimai-siyasi qəzet

№ 7-9 (7469-7471) ✲ 1933-cü ildən nəşr olunur ✲ Cümə, 9 fevral 2018-ci il. ✲ Qiyməti 40 qəpik


**Xüsusi buraxılış**

# Qəbələ yeni yüksəliş mərhələsində



*Bu gün Azərbaycan dünyada özünəməxsus layiqli yerini tutubdur.*

**Heydər ƏLİYEV.**

*Sabitlik hər bir ölkənin inkişafı üçün başlıca şərtdir. Azərbaycanda isə sabitliyin mənbəyi Azərbaycan xalqıdır, onun iradəsidir və eyni zamanda bizim apardığımız siyasətdir. Çünki bizim siyasətimiz milli maraqlara söykənir, milli maraqlarımız bizim üçün hər şeydən üstündür. Ölkəmizin təhlükəsizliyi, sabitliyi, iqtsadi və sosial inkişafı, beynəlxalq arenadakı artan rolu sabitliyin təminatçısıdır.*

**İlham ƏLİYEV.**



*2017-ci il Qəbələnin sosial-iqtisadi həyatında bir sıra uğurlar, nailiyyətlər və əlamətdar hadisələrlə yadda qaldı. Əldə edilən uğurlar əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan ideyaların Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən yüksək təşkilatçılıqla həyata keçirilməsinin məntiqi nəticəsidir.*

*Rayon ictimaiyyəti nümayəndələrinin iştirakı ilə keçirilən bugünkü geniş müşavirədə isə rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayevin 2017-ci ildə Qəbələdə həyata keçirilən sosial-iqtisadi inkişafın yekunlarına dair məruzəsi dinləniləcək və müzakirə olunacaqdır.*

*Qəzetimizin bu sayında Səbuhi Abdullayevin məruzəsi dərc olunur.*

## 2017-ci ildə sosial-iqtisadi inkişafın yekunlarına və qarşıda duran vəzifələrə dair Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin hesabat məruzəsi

**Hörmətli qonaqlar,**
**Hörmətli yığıncaq iştirakçıları!**

Yanvarın 10-da Prezident cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilmişdir.

Prezident cənab İlham Əliyev iclasdakı giriş nitqində ötən il ölkəmizin uğurla inkişaf etdiyini, həyatımızın bütün sahələrində əldə edilmiş nəticələrin iqtisadiyyatımızın ümumi inkişafına böyük töhfə verdiyini, dünyanın müxtəlif yerlərində qanlı münaqişələrin, qarşıdurmaların geniş vüsət aldığını, Azərbaycan xalqının isə sabitlik və təhlükəsizlik şəraitində yaşadığını demişdir. "Dünyada mövcud olan mürəkkəb geosiyasi vəziyyəti nəzərə alaraq ölkəmizdə əldə olunan nəticələr yüksək qiymətə layiqdir" deyən dövlət başçısı bütün bunların sabitlik nəticəsində əldə olunduğunu, bu sabitliyin və uğurlu siyasətin təməlində xalq-iqtidar birliyinin, xalqın dəstəyinin dayandığını vurğulamışdır.

Dərin iqtisadi islahatlar ili kimi xarakterizə olunan 2017-ci ildə iqtisadi sahədə böyük uğurların qazanıldığını deyən Prezident İlham Əliyev beynəlxalq maliyyə qurumlarının Azərbaycanda gedən iqtisadi inkişaf sahəsindəki proseslərə yüksək qiymət verdiklərini qeyd etmişdir. 2017-ci ildə Davos İqtisadi Forumunun Azərbaycan iqtisadiyyatının rəqabət qabiliyyətliliyinə görə 35-ci yerdə qərarlaşdığını təsdiq etdiyini və ölkəmizin bu baxımdan MDB məkanında liderliyini qoruduğunu diqqətə çatdıran dövlət başçımız ötən il Azərbaycanda ümumi daxili məhsulun və qeyri-neft sektorunda gəlirlərin artdığını demişdir.

Cənab İlham Əliyev qeyri-neft sənayesində 3,6, kənd təsərrüfatında 4,1 faiz artım olduğunu, valyuta ehtiyatlarının 4,5 milyard dollar artaraq 42 milyard dollara çatdığını, ötən il bir çox önəmli layihələrin icra edildiyini bildirmişdir.

(Ardı 2-ci səhifədə).

*Hər bir qəbələlinin həyat səviyyəsinin daha da yaxşılaşdırılması üçün qarşıda görüləcək çox böyük işlərimiz var. Bu gün sözdə deyil, əməldə gördüyümüz işlər göz qabağındadır. Millət vəkilinin də əsas hədəfi seçiciləri qarşısında al-*



*nıaçıq-üzüağ dayanmasıdır. Əminəm ki, biz bundan sonra da sizlərin, dəyərli seçicilərimizin qarşısına çıxarkən hər dəfə bu fərəhli anları yaşayacağıq. Çünki hər birimizin ümdə məqsədi dövlətçiliyimizin inkişafına davamlı töhfələrimizi verməkdən ibarətdir.*

**Fəttah HEYDƏROV,**
**Azərbaycan Respublikası Ağsaqqallar Şurasının sədri, millət vəkili.**